# Eşitmə qüsurlu uşaqlarla məktəblərdə aparılan işlərin öyrənilməsi metodları

**Dilarə Dostuzadə**

**Müəllif:**
Dilarə Dostuzadə — pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Respublikası Təhsil İnstitutu.
Azərbaycan, Bakı.
E-mail: d.dostuzade@mail.ru

**Açar sözlər:**
Eşitmə qüsuru, fərdi yanaşma, məktəb, müəllim, tərbiyəçi, ailə.

**Annotasiya.** Tədris zamanı təlimin bütün formaları izlənilməlidir. Şagirdin mənimsəməsi üzərində müəllimin nəzarəti olmalıdır. Eşitmə qüsurlu şagird mövzu ətrafında təsəvvürünü geniş izah etməyi bacarmalı, yoldaşları ilə fikir mübadiləsi aparmağa səy göstərməlidir. Eşitmə qüsurlu uşaqları məktəb təliminə hazırlamaq üçün, onların gördüyü işə fikir vermək lazımdır, şifahi və yazılı nitq bir-birilə bağlı olaraq inkişaf etdirilməlidir. Bu zaman şagirdlərin biliyə olan marağı artar və uşaq məktəbdə təhsilini davam etdirmək imkanı qazanar. Respublikamızda təhsil sistemində aparılan islahatlar xüsusi təhsildən də yan keçməmişdir. Hazırda respublikada xüsusi məktəblərin metodik ədəbiyyatlarla, dərs vəsaitləri ilə təmin olunması işində müəyyən qədər irəliləyiş hiss olunur. Eşitmə qüsurlu uşaqlarla, məktəbdə aparılan işin nəzəri-təcrübi problemləri ilə bağlı bəzi məsələlər pedaqoji-psixoloji və metodik ədəbiyyatda öz əksini tapmışdır. Ədəbiyyatların bir qismində eşitmə qüsurlu uşaqlarla nəzəri-təcrübi işlərin təşkilindən birbaşa danışılmasa da, onların əhəmiyyətindən və şəxsiyyətin formalaşmasındakı rolundan söhbət açılır.

**DOI:** 10.32906/AJES/683.2018.02.21

**Məqaləyə istinad:** Dostuzadə D. (2018) *Eşitmə qüsurlu uşaqlarla məktəblərdə aparılan işlərin öyrənilməsi metodları.* «Azərbaycan məktəbi». № 3 (684), səh. 139–148

**Məqalə tarixçəsi**
Göndərilib: 08.07.2018; Qəbul edilib: 11.09.2018

# Methods of the studies in schools with hearing impaired children

**Dilara Dostuzade**

**Author:**
Dilara Dostuzade,
PhD in Pedagogy,
Associate Professor
The Institute of Education of Azerbaijan Republic.
Azerbaijan, Baku
E-mail:
d.dostuzade@mail.ru

**Keywords:**
Hearing impaired, individual attitude, school, teacher, educator, family.

**Abstract.** During the course you need to keep track of all forms of training. Observation of the teacher should be carried out for the acquisition by the student. A frustrated pupil should be able to describe in detail his thoughts around the subject and strive to exchange ideas with his friends. In order to prepare children with hearing impairments for schooling, they need to give an idea of what they are doing, and verbal and written language should be developed interrelated. At this time, students' interest in knowledge increases, and the child has the opportunity to continue schooling. Reforms in the system of education in our republic were not carried out specifically. At present, there has been some improvement in the provision of schools with methodological literature and textbooks. Some questions related to the theoretical and practical problems of children with hearing impairment, and the work done in school, are reflected in the pedagogical and psychological and methodological literature. Although the literature does not directly discuss that theoretical and experimental work with children with hearing impairment is being discussed, we are talking about their importance and their role in the formation of personality.

**DOI:** 10.32906/AJES/683.2018.02.21

**To cite this article:**
Dostuzade D. (2018) *Methods of the studies in schools with hearing impaired children.* Azerbaijan Journal of Educational Studies. Vol. 684, Issue III, pp. 139–148

**Article history**
Received: 08.07.2018; Accepted: 11.09.2018

## Giriş

Nitqin insanların həyatında mühüm rol oynaması hamıya məlumdur. İnsanlar nitqin köməyi ilə öz təəssüratlarını bildirməklə, bir-birini başa düşməklə yanaşı, arzu və hisslərini ifadə edirlər. Nitq insanların bir-birinə qarşılıqlı təsir göstərmələri üçün bir vasitədir. Söz adamlarda inam yaradır, onları əməyə, qəhrəmanlığa çağırır, pis əməllərdən çəkindirir, sevindirir, güldürür və s. Sözün köməyi ilə uşaqlarda bu və ya digər psixi proseslər inkişaf edir, şəxsiyyətin xüsusiyyətləri formalaşır. Psixoloqlar, dilçilər, metodistlər və müəllimlər nitq inkişafı məsələsini bir neçə cür həll etməyə çalışırlar. Bəziləri uşaqların nitqinin inkişafını özbaşına gedən bir proses hesab edirlər. Onların fikrincə, uşağın şüuru müxtəlif təsəvvürlər və anlayışlarla zənginləşdikcə, onun həyat təcrübəsi genişləndikcə təlim-tərbiyəsi də inkişaf edir. Bununla belə, məktəblərdə təlim-tərbiyə üzrə xüsusi məşğələlərin təşkilinə ehtiyac vardır.

## Əsas mətn

Azərbaycanda defektologiyanın inkişafı üçün xüsusi məktəblərin mövcud olduğu illər ərzində bütün sahələr üzrə fəaliyyət göstərən mütəxəssislərimizdən Q.Şahbazi, M.Abbasov, S.Qasımov, S.Əsgərov, E.Quliyev, M.Quliyev, M.Məmmədova, N.Hüseynova, İ.İ.Quliyeva, T.Ağayeva, Ə.Muradova, Q.Hüseynova, Z.Dadaşova, O.Şahsuvarova, İ.Qaralov, S.Sadıyev, D.Dostuzadə, L.İmanova, E.Kərimova, G.Əhmədova, M.Məmmədova, F.Süleymanov və başqalarını göstərmək olar [Dostuzadə D.Ə. 2016, 150 s.]. Bu mütəxəssislər sağlamlıq imkanları məhdud uşaqların təlim-tərbiyəsi ilə uzun illər məşğul olaraq, bütün imkanlardan istifadə etməyə çalışmışlar.

Görkəmli mütəfəkkirlərdən Hippokrat və Aristotelin, tanınmış alim Cirolamo Kardononun söylədiyi fikirlər, mülahizələr bu gün də aktuallığını saxlamaqdadır. Eşitmə qüsurlu uşaqların təlim-tərbiyəsində mövcud, mübahisəli problemlərin elmi təhlili, pedaqogikada və klassik irsi münasibətdə sovet defektoloqları A.Dyaçkov, F.Rau, A.Basova, A.Ponqilskaya, J.Şif, M.Qlebova, T.Vlasova, M.Tamilova, K.Volkova, V.Belyutkov, N.Morozova, P.Boskis, S.Zikov, N.Slezina, E.Leonqard, A.Zikeyev və başqalarının apardıqları tədqiqat və eksperimentlərdə öz həllini tapmışdır. Eşitmə qüsurlu uşaqlar ətraf mühitlə birbaşa əlaqə saxlamaq imkanından məhrumdurlar. Onlarda bu çatışmazlığı aradan qaldırmaq üçün, şifahi sözlü nitq vərdişlərinin yaradılmasına nail olmaq lazımdır.

Psixoloq A.Lyublinskaya yazır: «Dil ümumidir, nitq isə dildən fərdi istifadə prosesidir. Ona görə də nitq dildən kasıb, həm də zəngindir. İnsan öz ünsiyyət təcrübəsində, doğma dilinin zənginliyini təşkil edən lüğətin və müxtəlif qrammatik quruluşun yalnız kiçik bir hissəsindən istifadə edir. Bununla yanaşı, nitq dildən zəngindir. Uşaqlarda hissiyyat yaxşı inkişaf edir. Bu hissiyyat kənar təsirlərin ən zənginidir. Adam istədiyi sözün mənasından çox şey deyə bilir. Lakin adamın öz fikrini başqasına kifayət qədər dəqiq və incəliklə verə bilməsi üçün o, ana dilinə gözəl yiyələnməlidir» [Люблинская А.А. 1971, с. 276].

Uşaqların cəmiyyət üçün faydalı insanlar kimi tərbiyəsi, hələ qədimdən bir problem kimi irəli sürülmüşdür. Bu problemin aktuallığı, onun surdopedaqogika şəklində formalaşması ilə sübut edilir. Surdopedaqogika pedaqoji elmlər sisteminin tərkib hissəsi kimi öyrənilməyə başlanmışdır. Defektoloq alimlər eksperiment nəticəsində eşitmə qüsurlu uşaqların eşitmə və görmə duyğularının əsaslı öyrənilməsi ideyasını irəli sürmüşlər.

C.Kardono apardığı tədqiqatlardan belə nəticəyə gəlmişdir ki, «Eşitmə qüsurlu uşaqlar inkişafetmə qabiliyyətinə malikdirlər, yəni onlarla təlim işi aparmaq mümkündür. Bu elmi fikir surdopedaqogikanın bir elm kimi inkişafında çox böyük əhəmiyyət kəsb edir.

XIX əsrin sonu XX əsrin əvvəllərində fransız alimlərindən Dolore və Sikar eşitmə qüsurlu uşaqların «ölü dil» olan mimikadan istifadə etmələri fikrini irəli sürmüşdür. Alman alimləri Qeyniks, İ.Fatter, E.Kayzer isə bu fikrin əksinə

çıxaraq, şifahi danışıq və daktildən istifadə etməyi məqsədəuyğun hesab etmişlər. A.Dyaçkov «Eşitmə qüsurlu uşaqların sistemli öyrənilməsi» əsərində fransız, alman və amerikan defektoloqlarının mübahisə doğuran fikirlərinin geniş təhlilini vermişdir [Дьячков А.И. 1963, c.175]. N.Laqovski göstərir ki, bütün dövrlərdə müəllimlərin cəhdi nitqini eşitmə qüsurlu uşaqlara bu və ya digər formada çatdırmaq olmuşdur. Göründüyü kimi, tədqiqatçı belə uşaqlarda şifahi sözlü danışıq vərdişlərinin yaradılmasını mürəkkəb bir proses hesab etmişdir [Лаговский Н.М. 1911, с. 339-341].

Hazırda eşitmə qüsurlu uşaqların təhsil aldığı məktəblərin qarşısında duran mühüm vəzifələrdən biri, uşaqlarda yazılı və şifahi nitqin formalaşmasından ibarətdir. Bu məsələnin həlli ilə defektoloqlardan F.Rau, B.Belyutkov, L.Neyman, N.Slezina, S.Zikov, E.Leonqard və N.Nikitina məşğul olur.

Sovet defektoloqlarından F.Rau, B.Belyutkov, K.Volkova, E.Leonqard, N.Slezina və başqaları karlaşmış uşaqlarda şifahi nitqin inkişafı metodikasına aid yazdıqları əsərlərində göstərmişlər ki, dilin səs sistemini, lüğət tərkibini, qrammatik quruluşunu leksika və qrammatika ilə əlaqəli şəkildə öyrətmək olar [Рау Ф.Ф, Нейман Л.В, Белютков В.И. 1981, с. 235]. Qrammatika analitik-sintetik metoda əsasən öyrədilərkən S.Zikovun fikrincə, «Burada əvvəlki hallarda olduğu kimi, yalnız uşaqlar müvafiq səsləri düzgün tələffüz etməyi öyrəndikdən sonra hərfi göstərmək lazımdır. Səs bir neçə şagird tərəfindən uzun müddət lazımi qaydada tələffüz edilmirsə, deməli, hərfin oxunması və yazılmasının öyrədilməsini müəllim düzgün apara bilməmişdir». Eşitmə qüsurlu uşaqlarda nitqin inkişafı və nitq vərdişlərinin yaradılması mürəkkəb bir prosesdir. Nitq inkişafı özünəməxsus metodlara malikdir. Uşaqların məktəbdə oxumaları və inkişaf etmələri üçün nitqə yiyələnmək əsas şərtdir [Зыков С.А. 1977, с. 50].

Şifahi nitqdə tələffüz vərdişlərinin formalaşdırılmasında məqsəd tələffüzün informal təliminə yiyələnməkdir. Bu, müəllimin, tərbiyəçinin nitqi nümunəsində şagirdlərin eşitmə-görməni bacarmaq və dərketmə qabiliyyətlərinin formalaşmasına imkan verir. Düşünülmüş və dərk edilmiş nümunələrin təkrar olunması, şagirdlərin həmin sözləri müstəqil ifadə etmələrinə şərait yaradır. Eşitmə qüsurlu uşaqların məktəbdə oxumaları və inkişaf etmələri üçün sözlü nitqə yiyələnməsi əsas şərtdir.

R.Boskis apardığı tədqiqatlarında qeyd edir ki, eşitmə qüsurlu uşağa nitq vərdişinin aşılanmasında tələffüz mühüm rol oynayır. Düzgün, səlis, rəvan və aydın tələffüzə nail olmaqla, uşaqlarda nitq vərdişi yaratmaq mümkündür [Боскис Р.М. Зикеев Л.Г. Коровин К.Г. 1973, с. 349]. 1932-ci ildə professor B.Çobanzadə və C.Məhəmmədzadə şagirdlərin nitq inkişafını ön plana çəkirdilər. 1934–cü ildə Ə.Dəmirçizadənin yazdığı metodik məktubda nitqin təmizliyi məsələlərindən bəhs edilir. «Düzgün yazmaq üçün düzgün söyləmənin, ədəbi dildə danışmağa vərdiş etməyin çox böyük əhəmiyyəti vardır. Buna görə də müəllimlər ilk gündən şagirdlərlə ədəbi dildə danışmalıdırlar. Təəssüflə qeyd etmək lazımdır ki, bəzi müəllimlər hələ də ədəbi dildə danışmağa vərdiş etməmişlər» [Kərimov Y.Ş. 2013, 551 s.].

Eşitmə qüsurlu şagirdlərin şəxsiyyət kimi formalaşdırılması problemi, onların əqli inkişafında təlimin rolu, təlim materiallarını mənimsəmə imkanları, müəllim-şagird münasibətləri və s. məsələlər respublikamızda psixologiya elminin inkişafında məqsədyönlü tədqiqatların aparılmasının ana xəttini təşkil etmişdir.

Surdopedaqoq İ.Laqovski oxunun böyük əhəmiyyətinə işarə edərək yazmışdır ki, eşitmə qüsurlu uşaq məktəbdən kənarda qalmaqla ətraf aləmdən təcrid edilmiş olur. İ.Vasilyev qeyd edir ki, eşitmə qüsurlu uşaq kitabdan oxuduqlarını başa düşmək səviyyəsinə gətirilməzsə, onun inkişafı heç vaxt normal adamın səviyyəsinə çata bilməz [Лаговский Н.М. 1911, с. 339-341].

Eşitmə qüsurlu uşaqlarda nitq inkişafı və nitq vərdişinin yaradılmasının çox mürəkkəb bir proses olduğunu nəzərə alsaq, onun ilk

mərhələsini iki hissəyə ayırmaq olar: tələffüz; dodaqdan oxu. Bunların hər ikisi eyni məqsədə, sözlü nitqin formalaşmasına xidmət edir. Aydın-anlaşıqlı nitqin formalaşması üçün səslərin artikulyasiyasını şagirdlərə düzgün mənimsətmək lazımdır.

Özünəməxsus zəngin metodlara malik olan nitq inkişafı fasiləsiz tədris işi tələb edir. Sözlü nitqə yiyələnmə uşaqların məktəbdə oxumaları və inkişaf etmələri üçün vacibdir. Eşitmə qüsurlu uşağa kitab üzərində işləməyi öyrətmək lazımdır.

K.D.Uşinski yazırdı ki, şagirdlər əl hərəkətlərini, hərfin özünəməxsus formasını düzgün bilmirlər. Müəllim çalışmalıdır ki, daktilin düzgün yazılış formasını və göstərilməsini ilk gündən uşaqlara öyrədə bilsin. Məlum olduğu kimi, uşaqların çoxu evdən birbaşa məktəbə gəldikləri üçün, daktil əl hərəkətlərini bacarmırlar. Müəllim əlifbaya hazırlıq dövründən başlayaraq şagirdlərin sözlü nitqini və təfəkkürünü inkişaf etdirmək qayğısına qalmalıdır. Buna görə də sinifdə öyrədilən mövzular, dərsdən sonra tərbiyəçilər tərəfindən təkrar edilməlidir. Məktəbdə eşitmə qüsurlu kiçikyaşlı uşaqların, yuxarı sinif şagirdləri ilə ünsiyyətdə olması, bir-birinə müraciət etməsi, sözlü nitqdən istifadə üçün geniş imkanlar yaradır [Ушински К.Д. 1948, с. 132].

Surdopedaqoq S.Zikov zəif eşidən və sonradan karlaşmış uşaqlarda şifahi nitqin formalaşması üçün daktilin əhəmiyyətli olduğunu sübut etmişdir. Şagirdlərin əlifba təliminə hazırlıq dövründə daktillə yazıya ciddi fikir verilməlidir [Зыков С.А. 1977, с. 50]. K.D.Uşinskinin göstərdiyi kimi, uşaqların dil sahəsindəki qabiliyyətlərini inkişaf etdirmək üçün, düzgün fikirləşmək qabiliyyətini inkişaf etdirmək lazımdır. O yazırdı: «Fikirdən ayrılıqda dili inkişaf etdirmək mümkün deyil, ona üstünlük verərək, fikirdən əvvəl dili inkişaf etdirmək isə şübhəsiz zərərlidir» [Ушински К.Д. 1947, с. 19].

Mərkəzləşmiş metoddan istifadə uşaqların tələffüzündə aydınlığı gözləməyi, səslərin öyrənilməsində ardıcıllığı pozmamağı təmin edir. F.Rau bu metodun əhəmiyyətindən bəhs edərək yazır: «Təlim prosesində səslərin uşaqlara mərkəzləşmiş metodla öyrədilməsi, asan tələffüz olunan səslərdən, nisbətən mürəkkəb tələffüz olunan səslərin öyrədilməsinə keçməyi təmin etmiş olur» [Рау Ф.Ф. 1973, с.126].

Hazırlıq dövründə fonematik təhlil mühüm əhəmiyyət kəsb edir. Müəllim dilimizin fonem nəzəriyyəsi ilə tanış olmalıdır. Ə.Dəmirçizadə və A.Axundov dilimizin özünəməxsus fonem sistemi olduğunu sübut etmişlər. Fonematik təhlil prosesində şagirdlər nitq, cümlə, söz, heca, hərf, sait, samit anlayışları ilə tanış olurlar [Kərimov Y.Ş. 2013, 551 s.].

B.A.Voskresenski yazırdı: təbiətin öyrənilməsində kitab təbiətin özü olmalıdır. Oxu vərdişlərinin formalaşdırılması, təlim prosesində eşitmə qüsurlu uşaqların hafizəsini, düşünmə qabiliyyətini inkişaf etdirir. Şagirdlər əşya və hadisələri tutuşdurmaq, fikrini sübut etmək, ümumiləşdirmə aparmaq, əqli nəticəyə gələ bilmək üzrə bir çox bacarıq və vərdişlərə yiyələnirlər. Bu prosesdə onlar səsləri düzgün tələffüz etməyi, səslərdən heca, söz düzəltməyi, sözlərdən cümlə qurmağı öyrənirlər [Воскресенкая. 1963, с. 296].

## Problemin həlli yolları

Eşitmə qüsurlu uşaqlara təhsil aldıqları məktəblərdə tələffüz, dodaqdan oxu vərdişlərinin formalaşdırılması, mənimsənilməsi təlim-tərbiyə prosesində səmərəli fəaliyyətin təşkili üçün əsas olmalıdır. Proqramda göstərilən mövzular da məhz bu istiqamətdə qurulmalıdır.

Müəllim uşaqların oxuyarkən səsləri düzgün tələffüz etmələrinə və tələffüz vərdişlərinin inkişafına diqqət yetirməlidir. Belə uşaqların inkişaf etdirilməsində, formalaşmasında, cümlə qura bilmək vərdişlərinin yaradılmasında, nitqlərindəki tələffüz nöqsanlarının aradan qaldırılmasında həmin məlumatların rolu xüsusilə böyükdür. Bütün bunlar uşaqlarda düzgün tələffüz vərdişlərinin formalaşdırılmasına, tələffüz qüsurlarının aradan qaldırılmasına kömək göstərir.

Surdopedaqoqların əksəriyyəti (Boskis, Slezina, Qrunfeld və b.) eşitmə qüsurlu uşaqların şifahi nitqinin formalaşdırılmasının tərəfdarı olmuş, onlara dodaqdan oxuya bilmənin öyrədilməsinin vacibliyini sübut etmişlər. Eşitmə qüsurlu uşaqlar ünsiyyətdən uzaq olduğundan, onlara bir-birinə və ətrafdakılara müraciət edə bilməyi, sözlərin mənasını şüurlu dərk etməyi, cümlədə düzgün işlətməyi öyrətmək və sözlü nitq vərdişi yaratmaq lazımdır [Боксис Р.М. 1963, сек. 335. s. 37-40].

Məktəb təcrübəsi və psixoloji tədqiqatlar göstərir ki, eşitmə qüsurlu uşaqlar çox vaxt əşyaların adını bildirən sözləri eşidib dərk edə bilmir, əşyaları əyani şəkildə gördükdə isə qavrayırlar. Belə uşaqları I sinifdə spesifik xüsusiyyətlərinə görə 5 qrupa bölmək olar:

1) qavrama qabiliyyəti zəif olanlar;
2) yaddaşı zəif olanlar;
3) verilən biliklərdən faydalana bilməyənlər;
4) yaradıcılıq qabiliyyəti olmayanlar;
5) ümumiləşdirmə bacarığı olmayanlar.

Uşaqlarda müəyyən edilmiş bu qüsurlara qarşı mübarizə kompleks şəkildə aparılmalıdır. Təlim prosesində çalışmaq lazımdır ki, uşaqlara ünsiyyət zamanı formal səs, cümlə deyil, yazılı və şifahi xalq nümunələri əsasında canlı dil öyrədilsin.

I sinifdə təlim prosesində daktil əlifbası əsas yer tutur. Daktillə yazılan sözlər əyani olaraq şagirdlərə göstərilir. Onlar hər bir hərfin necə yazılmasını görür və müəllimlə birlikdə bu hərfi yazmağa başlayırlar. Şifahi nitq daktilə əsasən tədris edilir. Daktil nitqi uşaqların şifahi nitqə yiyələnmələrini asanlaşdırır.Görkəmli surdopedaqoq S.A.Zikov eşitmə qüsurlu uşaqlarda şifahi nitqin inkişafı üçün daktilin böyük əhəmiyyətinin olduğunu sübut etmişdir [Зыкова С.А. 1968, 332 с.].

## Daktil əl əlifbası

Müəllim ilk günlərdən uşaqlarla hazırlıq işi aparmasa, əlifba təliminə başladıqda böyük çətinlik qarşısında qalar.

Xüsusi uşaq bağçasından məktəbə gələn uşaq, o biri uşaqlara nisbətən sözləri tez mənimsəyir. Eşitmə qüsurlu və zəif eşidən uşaqların çoxu uşaq bağçasına getmir, ona görə də məktəbə yeni gələn uşaqların çoxu hazırlıqsız olur və sinifdə müxtəlif səviyyəli uşaqlara təsadüf olunur.

Savad təliminə hazırlıq dövründə uşaqlarda görmə, hissetmə orqanı vasitəsilə hərəkətləri daha yaxşı görmək bacarığı inkişaf etdirilməlidir. Eşitmə qüsurlu uşaqların savad təlimində qazandıqları müvəffəqiyyət görmə, hissetmə orqanlarının inkişafından çox asılıdır. Müəllim eşitmə qüsurlu uşaqlara asan misallarla cümlə, söz, heca, nitq, səs və hərfin nə olduğunu başa salmalı və göstərməlidir. Məsələn, müəllim nümunə üçün belə cümlələr deyir: O gəlir. Mən gəlirəm. Mən oxuyuram və s. Sonra o, uşaqlara müraciət edib müəyyən cümlə deməyi tələb edir. Cümlə tədricən eşitmə qüsurlu uşaqların fəal lüğətinə daxil olur. Bu yolla uşaqlar söz haqqında məlumat alır, ayrı-ayrı sözləri tələffüz edir, cümlədə neçə söz olduğunu bilir və özləri də belə oxşar cümlələr qururlar. Eşitmə qüsurlu uşaqlar heca haqqında təcrübi yolla məlumat alır, hər hansı bir sözü deyərkən müəllim neçə dəfə fasilə etmək, nəfəs almaq üzərində müşahidə aparmağı uşaqlara öyrətməlidir. Beləliklə, onlar sözləri deyərkən nəfəsalmaya əsaslanaraq fizioloji hadisəni tuta bilir və tələffüz etdiyi sözdə neçə heca olduğunu başa düşürlər. Müəllim sözdə və ya hecada səsi aydın tələffüz etməli və yeni səsi intonasiya ilə deməlidir. Müəllimlə birlikdə şagirdlər də yeni səsi xorla tələffüz etməlidirlər. Məsələn, alma sözündən *«a»* hərfini ayırarkən uşaqlar xorla birinci hecanı əvvəlcə *«aaal»*, sonra *«mmmaa»* şəklində deməyə başlayırlar. Birinci hecada *«a»*, ikincidə isə *«m»* xüsusi olaraq ayrılır. Müəllim elə etməlidir ki, sözdən səsi ayırarkən asan sözlər götürsün, sözü əvvəlcə hecalara ayırsın, sonra isə hecada səsi tapmağı uşaqlara öyrətsin [Qasımov S.Ə. 2002, 108 s.].

Şagirdlərin əlifba təliminə hazırlıq dövründə daktillə yazıya ciddi fikir verilməlidir. Çünki eşitmə qüsurlu uşaqlar əl hərəkətlərini, hərfin özünəməxsus formasının düzgün bilmirlər.

Müəllim və tərbiyəçi çalışmalıdır ki, şagirdlərə daktilin düzgün yazılış formasını təlim prosesində öyrədə bilsinlər.

## Daktil əl əlifbası ilə nitq inkişafı

Savad təliminə hazırlıq dövründə daktil əl əlifbası ilə nitq inkişafına xüsusi diqqət yetirmək vacib məsələlərdən biridir. Məktəbə yeni gələn eşitmə qüsurlu uşaqların diqqəti zəif olur. Onlar uzun müddət öz diqqətini bir işin üzərində saxlaya bilmir, tez yorulur və müəllimin dediklərinə fikir verə bilmirlər. Daktil əl işarələri ilə danışığın yaxşı mənimsənilməsi eşitmə qüsurlu uşaqların yazılı və şifahi nitqinin inkişafına kömək edir.

Məlum olduğu kimi, eşitmə qüsurlu şagirdlərin təhsil aldığı ibtidai siniflərdə təlim işinin gedişində daktil əl əlifbası üzrə dodaqdan oxu əsas yer tutur. Yəni  müəllim daktillə yazılan sözləri şagirdlərə əyani olaraq göstərir, onlar hərflərin necə yazılmasını görür və müəllimlə birlikdə bu hərfləri yazmağa başlayırlar. Şagirdlərin daktil əl əlifbasını bilməsi, oxunun daktil əl işarələri ilə aparılması müəllim tərəfindən vaxtaşırı yoxlanmalıdır. Tədris işinin gedişində sadə və mürəkkəb daktil əl işarələrindən ibarət məşq və yoxlama işlərinin aparılması məqsədəuyğundur. Uşaqların yaxşı oxuması üçün daktil əl işarələrindən tez-tez istifadə edilməlidir.

Müəllim daktil əl işarələrinin bəzisindən düzgün istifadə etmədikdə, şagirdlərin biliyi zəif olur. O çox vaxt elə bilir ki, uşaq dodaqdan oxuya bilir, ona görə də daktil əl işarələrindən yarımçıq istifadə edir. Tədrisin gedişində şagirdlərə sözləri və cümlələri aydın daktil əl işarələri ilə göstərməyə çalışmaq lazımdır. Hər bir uşaq düzgün, aydın, səlis nitqə yiyələnmək üçün, latın qrafikalı daktil əl işarələrindən istifadə etməyi, eyni zamanda sözləri düzgün yazmağı və şifahi nitqi düzgün tələffüz etməyi bacarmalıdır.

Oxu ilə yazının hər ikisinin qarşılıqlı əlaqədə olmasına baxmayaraq, daktillə yazının sürəti həmişə oxunun sürətindən geri qalır. Belə ki, oxu prosesindən fərqli olaraq daktillə yazı təkcə zehni deyil, həm də hərəki prosesdir. Sonradan eşitmə qüsurlu uşaqlar üçün daktillə düzgün yazı, möhkəm və dəqiq əl hərəkətləri tələb edir. Belə vərdişlər bu cür uşaqlarda tədricən yaranır.

Şagirdin mövzunu mənimsəməsi üzərində müəllimin nəzarəti olmalıdır. Şagird mövzu ətrafında təsəvvürünü geniş izah etməyi bacarmalı, yoldaşları ilə fikir mübadiləsi aparmağa səy göstərməlidir. Uşaqları məktəb təliminə hazırlamaq üçün, onların gördüyü işə fikir vermək lazımdır, şifahi və yazılı nitq bir-biri ilə bağlı olaraq inkişaf etdirilməlidir. Bu zaman şagirdlərin biliyə olan marağı artar və uşaq məktəbdə təhsilini davam etdirmək imkanı qazanar.

Pedaqoji cəhətdən uşaqları hazırlamaq üçün onlarla aparılan iş eyni formada inkişaf etdirilməlidir. Əgər uşaqda  hiss olunan nöqsanlar qalırsa, həmin uşaqla fərdi məşğul olmaq lazımdır. Fərdi məşğələ zamanı uşaqda maraq yaranır və o öz nitqinin düzgünlüyünə nəzarət edir.

Psixologiya elmi müəyyən etmişdir ki, uşağın psixoloji cəhətdən öyrənilməsi hərtərəfli olmazsa, onun mənimsəməsində hiss olunan nöqsanlar özünü büruzə verməz [Əlizadə Ə.Ə. 2004, 84 s.].

Psixoloji tədqiqatlar göstərir ki, eşitmə qüsurlu uşaqların görmə qavrayışı bir neçə obyekti əhatə edir. Bu, uşaqların ictimai fəallığını möhkəmləndirmək işində, onların qabiliyyət və bacarıqlarından düzgün istifadə edilməsində, fərdi yanaşmada özünü göstərir. Elmi axtarışlar sübut edir ki, eşitməyən uşaqların öyrənmə, dərketmə qabiliyyəti, təşkilatçılıq bacarığı daha çox inkişaf edir. Bəzən eyni sinifdə, hətta bir partada oturan iki şagirdin mənimsəmə qabiliyyəti, tapşırığı icra etmək imkanı və s. heç də eyni səviyyədə olmur.

Eşitmə qüsurlu  uşaqlar qavrama xüsusiyyətlərinə, fizioloji və psixoloji imkanına görə fərqlənirlər. Ona görə də mənimsəmə qabiliyyəti olmayan uşağı məzəmmət etmək olmaz, ona istiqamət vermək, qayğı göstərmək, onu ruhlandırmaq və başa salmaq lazımdır. Burada

dərketmə prosesində fiziki imkan, nöqsanın dərəcəsi nəzərə alınmalıdır. Belə münasibət nöqsanlı uşağı razı salır, onun gələcək fəaliyyətə ciddi yanaşması üçün psixoloji təkan rolunu oynayır.

Fərdi yanaşma, uşaqların bilik və bacarıqlara yiyələnməsinə kömək edir, onların fərdi xüsusiyyətlərinin öyrənilməsinə imkan verir. Belə uşaqların fərdi psixoloji xüsusiyyətlərini nəzərə alıb, ictimai fəallığın möhkəmləndirilməsində elə üsullar tətbiq edilməlidir ki, məktəbli ictimai tapşırıqla bağlı həm ictimaiyyətçi olsun, həm də özünə münasib olan biliklərdəki kəsrləri aradan qaldırmağa imkan tapsın.

Eşitmə qüsurlu uşaqlar ictimai yerlərdə, təlim əməyində, davranışında, nitqində olan nöqsanı fərdi yanaşma yolu ilə aradan qaldıra bilər. Bunun üçün onları ictimai tapşırıqlara cəlb etmək lazımdır. Bu cür ictimai tapşırıqlar uşaqlara mənəvi cəhətdən müsbət təsir edir, onların əqli və fiziki imkanları arasında düzgün əlaqə yaradılmasına imkan verir.

Şagird ətrafında olanları axıra qədər dinləyə bilmirsə, deməli, onun diqqəti zəifdir. Bu zaman uşaq hadisələri izləyə bilmədiyi üçün nitqini düzgün ifadə etməkdə çətinlik çəkir, tez yorulur, diqqətini cəmləşdirə bilmir, bu isə təlim zamanı onun mənimsəməsinə mənfi təsir edir. Uşaqlarda hafizə gec inkişaf edirsə, tədricən təhsilin normal davam etməsinə maneçilik törədir və şagird oxumağa, yazmağa həvəs göstərmir. Bu cür nöqsanları aradan qaldırmaq üçün müəllim pedaqogika və psixologiya elmindən istifadə etməlidir.

Ünsiyyət müxtəlif vasitələrlə həyata keçirilir. Onların içərisində nitq mədəniyyəti xüsusi yer tutur. Ekspressiv-mimiki jestlərlə əşyavi hərəkət jestlərinin ünsiyyət prosesində rolu eyni deyildir. Eşitmə qüsurlu uşaqlar müstəqil olaraq bir-biri və digərləri ilə ünsiyyət saxlaya, söz və cümlə qurmaqda çətinlik çəkdikləri üçün yaxşı ünsiyyət saxlamaq qabiliyyətinə malik ola bilmirlər. Belə uşaqlar müəllim və tərbiyəçilərin nəzarəti altında tədricən normal ünsiyyət qurma bacarığına nail ola bilirlər. Normal danışan uşaq, eşitmə yolu ilə özünün söz ehtiyatını zənginləşdirir. Zəif eşidən uşaq söz ehtiyatını zənginləşdirməyə müəyyən qədər nail ola bilir, bu da zəif eşidən uşağı karlaşmış uşaqdan fərqləndirir.

Eşitmənin itməsi uşağın müstəqil söz ehtiyatını artırmasına mane olur. Anatomik məlumatı öyrənmək üçün uşağın eşitmə qabiliyyətini yoxlamaq lazımdır. Bunun üçün aşağıdakılar müəyyən edilməlidir:

- uşağın fiziki inkişafı;
- nitq inkişafı;
- eşitməni itirmə səbəbi;
- nitqin itirilmə xarakteri;
- uşağın tərbiyə alma şəraiti.

Uşağın eşitmə nitqinin yoxlanması tam sakit şəraitdə, ətraf mühitin səs-küyündən ayrı otaqda aparılmalıdır. Səsi və vibrasiyanı azaltmaq üçün, eşitməsi yoxlanılan uşağın ayağının altına yumşaq xalça sərilməli, qarşısında onun əksini göstərən güzgü olmalıdır. Yoxlama zamanı uşağın valideyni və müəllimin iştirak etməsi daha məqsədəuyğundur.

*Müayinə.* Yoxlanmamışdan əvvəl uşağa eşitdiyi və öyrəndiyi səsə qarşı necə münasibət göstərməli və ya siqnal düyməsini basmalı olduğunu izah etmək lazımdır. Yoxlama zamanı yoxlayıcı üz hissəsini ekran vasitəsilə örtməlidir. Azyaşlı uşaqların nitqini yoxlamaq çətinlik törədir, çünki onların diqqəti əşyaya asanlıqla yönələ bilmir və fikirləri tez yayınır. Buna görə də onların eşitmə qabiliyyətini oyun zamanı yoxlamaq lazımdır. Uşaqların eşitmə qavrayışını yoxlamaq üçün sait səslərdən istifadə edilir.Buna görə də, bu və ya digər səs ayrıca, təcrid olunmuş şəkildə, heca və sözlərdə yoxlanmalıdır. Təcrübə göstərir ki, bəzən eşitmə qüsurlu olan uşaqlar, müəyyən səsləri yamsılamaq yolu ilə tez və düzgün tələffüz etməyi öyrənirlər. Loqoped bu üsuldan digər səslərin də tələffüz edilməsində istifadə edə bilər [Аббасов М.М. 1978].

Uşaq sinifdə proqram materialını mənimsəyə bilmirsə, oxuyub-yazması təlimə uyğun gəlmirsə, bu zaman müəllim şagirdlərə çalışmalar verməlidir. Şagirdlərə verilmiş hər hansı bir mətnin, hekayənin oxunub nağıl edilməsi, şəkil üzərində sual-cavab yolu ilə fikirlərini

cəmləşdirməli, ardıcıllıqla onu nağıl etməyi öyrətməlidirlər. Zəif eşdən uşaqlar fərdi öyrənmə metodundan istifadə etməklə biliyə, oxu və yazı qaydalarına yiyələnə bilirlər. Bu zaman uşaqlarda təhsilə olan tələbat bərpa olunur və uşaq düzgün oxu və yazı qaydalarına əməl edir. Bu tələbatlardan ən vacibi, insan orqanizminin normal inkişafı ilə əlaqədar olmasıdır. İnsanlarda tələbatlarla inkişaf xüsusiyyətləri eyni vaxtda yaranmır. Bu xüsusiyyətlər insanın özünəməxsus tələbatı zamanı əmələ gəlir, bunun əsasında bacarıqlar yaranır. Bunu aşağıdakı kimi vermək olar:

1) eşitmə bacarığı;
2) danışıq bacarığı;
3) dinləmə bacarığı.

Bu bacarıqlar uşaqların gündəlik tələbatına uyğun olaraq, inkişaf etməyə başlayır. Uşağın inkişafında müəyyən nöqsanlar olarsa, bu zaman bacarıqlardan biri öz fəaliyyətini düzgün yerinə yetirə bilmir.

Eşitmə bacarığı öz funksiyasını yerinə yetirə bilmirsə, uşaqların inkişafında nöqsanın dərinləşməsi özünü göstərir və sonradan bərpa olunması çətinləşir, eşitmə analizatoru zəif hərəkət edir.

Əgər danışıq bacarığı uşaqda normal olmursa, uşağın nitqində olan nöqsanın, dərinləşməsi özünü göstərir. Nitqdə hiss olunmuş nöqsan, nitqin düzgünlüyünə maneçilik törədir və uşaq nitqə düzgün yiyələnə bilmirsə, onun nitqi keyfiyyətsiz olur. Danışıq bacarığı pozulursa, nitq nöqsanı üzərində fərdi iş aparılması vacibdir.

Uşaqda dinləmə bacarığı olmazsa, danışılan söz-söhbətə qulaq asa bilmir, nöqsan getdikcə dərinləşir və uşağın üzərində aparılan iş keyfiyyətsiz olur.

L.S.Vıqotski ünsiyyət tələbatına uşağın psixi inkişafının əsas və hərəkətverici qüvvəsi kimi xüsusi əhəmiyyət verirdi. Psixoloji araşdırmalar göstərir ki, intellektin sosial kökləri, uşaqların ünsiyyət sahəsi ilə bilavasitə bağlıdır. Yəni valideynlər uşaqlarla nə qədər çox ünsiyyətdə olarsa, onların əqli inkişafına bir o qədər güclü təsir göstərərlər [Выготски Л.С. 1986].

Məktəb yaşı dövründə uşaqlar oxumağı, yazmağı, ümumiləşdirməyi və nəticə çıxarmağı öyrənir, zehni əmək fəaliyyətinə yiyələnirlər. Bu zaman uşaq hər yerdə görmə bacarığına nail olur və hər şeyi dərk edib nəticə çıxarmağa yiyələnir. Eşitmə qüsurlu uşaqlar üçün yuxarıda qeyd olunanlar paralel olaraq inkişaf fəaliyyətini davam etdirməlidir. Əgər uşaqda bu bacarıqlardan biri normal inkişaf etməsə, onun təhsilə olan marağı zəifləyəcək. Müəllim hər bir şagirdin təlimi normal mənimsəməsinə düzgün nəzarət etməli və onun nöqsanını düzəltmək üçün fərdi iş aparılmasını məsləhət görməlidir. Xəstəlik keçirmiş uşaqların diqqəti zəif və davamsız olur. Karlaşmış uşaqlarda eşitmə duyğusu eşitmə üzvü üçün qıcıqlandırıcı təsir (səs dalğaları, hava dalğaları, titrəmə və s.) daşıyır. Dəri duyğuları əsasən toxunma, soyuqluq, istilik, ağrı və s. ibarət olmaqla köməkçi vasitə kimi uşaqlarda eşitmə vəzifəsini ifa edir. Bu dörd növ duyğunun hər birinə qarşı dərinin həssaslığı müxtəlif olur. Toxunmaya olan həssaslıq barmaqların ucunda daha güclü inkişaf edir. Eşitmə qüsurlu uşaq cismin xassələrini: bərkliyini, yumşaqlığını, formasını düzgün müəyyənləşdirmək üçün onu əli ilə yoxlayır. Onlar təsəvvürləri, fikirləri, sözləri, hərəkətləri rabitəli olaraq yadda saxlaya bilmir, tez unudurlar. Yaddasaxlama hər hansı bir fikri, hekayəni, söz və cümləri əlaqələndirməkdən ibarətdir. Əgər uşaq bir hadisəni əlaqələndirə bilirsə o, həmin hadisəni daktil vasitəsilə ifa edə bilir. Rabitəli əlaqənin səs şərti təkrardır, təkrar nə qədər çox olarsa, uşaqların yaddaşı da bir qədər möhkəm olur. Hazırda məktəblilərin fərdi psixoloji xüsusiyyətlərini öyrənmək üçün, təlim zamanı xüsusi cihazlardan geniş istifadə olunur.

Eşitmə qüsurlu uşaqlarla aparılan təlim-tərbiyə işlərini həyata keçirərkən, məktəb yaşı dövründə uşaqlar oxumağı, yazmağı, ümumiləşdirməyi və nəticə çıxarmağı öyrənməlidir, bu uşaqların zehni əmək fəaliyyətinə yiyələnmələri çox vacibdir.

## İstifadə edilmiş ədəbiyyat


1. Abbasov M. (1978). Təlim-tərbiyə işində uşaqların yoxlanması. Bakı.
2. Ağayeva T. (2005). Eşitmə qüsurlu uşaqların psixokorreksiyası. Bakı, 145 s.
3. Bayramov Ə. (1967). Şagirdlərdə əqli inkişaf keyfiyyətlərinin xüsusiyyətləri. Azərtədrisnəşr, 335 s.
4. Berry V. (1992). Communication Priorities and Strategies for the Mainstreamed Child with Hearing Loss.Volta Review, №1.
5. Cupples L; Ching T.Y.; Leigh G.; Martin L.; Gunnourie M.; Button L.; Marnane V.; Hou, S.; Zhang V.; Flynn C. (2018). Language development in deaf or hard-of-hearing children with additional disabilities: type matters!. Journal of Intellectual Disability Research, Vol. 62, Issue 6, p-s. 532-543, Wiley, USA, DOI: 10.1111/jir.12493
6. Dostuzadə D. (2011). Eşitmə qüsurlu şagirdlərin hərəkət bildirən sözləri mənimsəməsində özünü göstərən çətinliklər. TPİ-nin elmi əsərləri, №-4, 259 s.
7. Dostuzadə D. (2016) Eşitmə problemli (zəif eşidən və sonradan karlaşmış) uşaqların oxu texnikasının formalaşdırılması. Monoqrafiya, Bakı: ADPU, 150 s.
8. Əlizadə Ə. (2004). Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 84 s.
9. Karimzadeh P., Moosavian H. (2018). Recurrent Stroke in a Child with TRMA Syndrome and SLC19A2 Gene Mutation. Iranian Journal of Child Neurology. Iranian Child Neurology Soc. Tehran. Vol. 12, p. 84-88.
10. Kərimov Y. (2013). İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası // Bakı: Səda nəşriyyatı, 551 s.
11. Qasımov S., Dostuzadə D. Kar və zəifeşidən uşaqlara yeni latın qrafikalı Azərbaycan daktil əl əlifbasının öyrədilməsi // Bakı: ADPU, 2006, 18 s.
12. Wu, X; Jiang, HY; Wen, LY; Zong, L; Chen, KT. (2018). Delayed Recovery in Pediatric Sudden Sensorineural Hearing Loss Predicted via Magnetic Resonance Imaging. Annals of Otology Rhinology And Laryngology. Sun Yat Sen Univ., Gunadgdong. Vol.127, Issue 6. p-s. 373-378.
13. Боксис Р. Основы специального обучения слабослышающих детей. Москва, Просвешение, 1968, 310 с.
14. Выготски Л. Мышление и речь. Москва, 1986.
15. Дьячков А. (1961). Системы обучения глухих детей. Москва, 15 с.
16. Дьячков А. (1963). Сурдопедагогика // под редакцией проф. Москва, с.175.
17. Зайцева Г. (2000). Дактильная и жестовая речь. Москва, 132 с.
18. Лаговский Н. (1911). Обучение глухонемых устной речи // Александровск с. 339-341.
19. Леоньтев А. (1965). Язык, речи и речевая деятельность. Москва, 265 с.
20. Люблинская А. (1971). Детская психология // «Просвещение». М., 1971, с. 276
21. Рау Ф. (1973). Устная речь глухих // Москва, с.126.